**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**<u>FİLOLOGİYA FAKÜLTƏSİ</u>**

**Təsdiq edirəm:**
**Filologiya fakültəsinin dekanı**
**Dos.əvəzi E.H.MƏMMƏDOV**

# AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ KAFEDRASINDA ELMİ-TƏDQİQAT PLAN İŞLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ HAQQINDA

# MƏLUMAT

**BAKI - 2017**

# 1. GİRİŞ

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ ( professor- müəllim heyətinin yaş göstəriciləri əlavə etməklə)

### Azərbaycan dili və nitq mədəbniyyəti kafedrasının 2017-ci il elmi-tədqiqat planının yerinə yetirilməsi haqqında məlumat

2017-ci ildə kafedrada ştat üzrə 16 müəllim işləyir. Onlardan 9-u tam ştatda, 7-i 0,5 (yarım) ştatdadır. Ştatda olan müəllimlərdən 12-nin elmi dərəcəsi var. On nəfəri elmlər namizədi, dosent, iki nəfəri elmlər namizədi dosent əvəzidir. Ştatda olan müəllimlərdən 4-nün elmi dərəcəsi və elmi adı yoxdur.

Kafedranın 2017-ci ilə aid elmi iş planı Azərbaycan dili və nitq mədəniyyəti məsələlərinə həsr edilmişdir. Bununla bərabər, dil və ədəbiyyata aid nəzəri mövzulara da yer verilmişdir.

**2017-ci ildə kafedranın müəllimləri və elmi işləri haqqında.**

1. S.V.Abbasova – 1973, fil. elm. nam., dosent, 0,5 ştat, kafedra müdiri
2. S.M.Seyidova – 1949, fil. elm. nam., dosent, tam ştat
3. S.A.Orucova – 1972, fil. elm. nam., dosent, tam ştat
4. O.N. Piriyeva – 1950, p.e.n., dosent, tam ştat
5. S.M. Mərdanova – 1979, fil.elm. nam., dosent, tam ştat
6. Z.P.Nəbiyeva - 1956, fil. elm. nam., dosent, 0,5 ştat
7. A.T.Əliyeva – 1970, fil.elm.nam., dosent, tam ştat
8. N. K. Məmmədova – 1965, fil.elm.nam., dosent, 0,5 ştat
9. Ş.A.Abasova – 1969, fil.elm.nam., dosent, 0,5 ştat
10. X.F.Manaflı – 1977, fil.elm.nam., dosent, tam ştat
11. Ə.Y.Ağakişiyev – 1957, fil. ü.fəl.dok., dos. əvəzi, 0,5 ştat
12. İ.A. Məhərrəmova – 1958, müəllim, tam ştat
13. N.M.Hacıyeva – 1970, müəllim, tam ştat
14. Ş.N.Əliyeva - 1969, müəllim, 0,5 ştat

15. L.Ə.Əliyeva – 1961, fil.elm.nam., dos.əvəzi , tam ştat

16. Y.V.Qəhrəmanlı – müəllim, 0,5 ştat

**Planda nəzərə alınmış problemlər:**

1. Azərbaycan dili və nitq mədəniyyətinin nəzəri və praktik məsələləri üzrə.

## 3. KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI VƏ YERİNƏ YETİRİLMƏSİ

**İş A - Azərbaycan dili və nitq mədəniyyətinin tədrisində normalar.**

**Mərhələ** III **Ədəbi dilin qrammatik norması.**

**İcraçı: dos. S.V.Abbasova**

Qrammatik norma nit mədəniyyətinin əsas şərtlərindən biri olub, dilin qrammatik quruluşunu əhatə edir. Qrammatik norma nitqdə sözlər və cümlələr arasındakı əlaqələrin düzgün qurulmasını tənzimləyir. Əgər sözlər və cümlələr arasında qrammatik norma pozularsa, kobud, anlaşılmaz nitq əmələ gələr. Qrammatik norma dilin iki sahəsini özündə əks etdirir: morfoloji norma; sintaktik norma.

Morfoloji norma sözün qrammatik formasının düzəldilməsi qaydasıdır. Sözdüzəltmə və sözdəyişmə bu normanın daxilində tənzimlənir.

Sintaktik norma sintaktik vahidlərin – söz birləşməsi və cümlənin düzgün qurulması qaydasıdır. Bu normalara sözlərin uzlaşması və idarə qaydaları, cümlə üzvlərinin bir-birilə əlaqələndirilməsi daxildir. Sintaktik norma cümlədə eyni sözün təkrarına və sintaktik sıranın pozulmasına yol verilməməsi tələbini qarşıya qoyur.

**İş B - Azərbaycan dilində üslublar sistemi.**

**Mərhələ III Azərbaycan dilində publisistik və rəsmi-əməli üslub**

**İcraçı: dos. S.M.Seyidova**

“Azərbaycan dilində publisistik və rəsmi-əməli üslub” mövzusunda elmi-plan işi Giriş, iki bölmə və nəticədən ibarətdir.

Girişdə üslub, üslubiyyat, üslüb növləri məsələlərinə qısa şəkildə aydınlıq gətirilmiş, üslubiyyatın tədqiqi məsələlərinə ekskurs edilmişdir.

Elmi işin birinci bölməsində "Publisistik üslub, onun məqsəd və mövqeləri, digər üslublardan fərqli cəhətləri, publisistik üsluba məxsus xarakterik xüsusiyyətləri və bu üslubun dili kimi məsələlər şərh olunmuş, media, televiziya, radio və s. dili olduğu göstərilmişdir.

"Rəsmi-əməli üslub" adlanan ikinci bölmədə rəsmi-əməli üslub və onun xarakterik xüsusiyyətlərindən, bu üslubun, əsasən, dövlətçilik, idarəçilik təcrübəsinin inkişaf etdiyi ölkəmizdə geniş miqyasda formalaşmasından bəhs edilmiş, rəsmi-əməli üslubun beynəlxalq müqavilələrin, qanunların, işgüzar sənədlərin dilinin üslubu olduğu göstərilmişdir.

Nəticə hissəsində üslubların bir-biri ilə inteqrasiyasından danışılmış və elmi-kütləvi üslub, bu üslubun əhəmiyyəti göstərilmişdir.

**İş Ç-Natiqlik sənətinin tədrisinə dair.**
**Mərhələ III Müasir dövr natiqlik sənəti.**

**İcraçı: dos. Z.P.Nəbiyeva.**

Natiqlik sənəti dedikdə, ictimaiyyət qarşısında çıxışların ən yüksək səviyyəsi, natiq nitqinin keyfiyyət özəlliyi, canlı sözü söyləyə bilmə ustalığına malik olması başa düşülür. Natiqlik sənəti dedikdə, nitqin auditoriyaya arzu olunan təsiri göstərmək məqsədilə gözəl qurulması və söylənməsi ustalığı nəzərdə tutulur. Müasir dörvdə natiqlik sənətinin qaışında mühüm vəzifələr dayanır. Biz bu prosesi dünyanın və ölkəmizin tanınmış natiqlərinin çıxışlarından izləyə bilərik. Bu mənada, elmi işdə çağdaş natiqliyin inkişafından və müasir natiqlərdən, xüsusilə ulu öndər Heydər Əliyevin natiqlik sənətinin inkişafındakı rolundan bəhs olunur. Elmi iş iki fəsildən ibarətdir.

Elmi işin birinci bölməsində dövrümüzdə natiqliyin kommunikativ aspekti haqqında məlumat verilir, əsas şərtləri və tələbələrinə diqqət yetirilir.

İkinci bölmədə görkəmli dövlət xadimi, ulu öndər H.Əliyevin natiqlik sənətinin inkişafındakı rolundan bəhs olunur.

"Nəticə" hissəsində mövzu haqqında ümumiləşdirilmələr aparılır. Araşdırmada, əsasən son dövr elmi ədəbiyyatlarına istinad olunmuşdur.

**İş E- Azərbaycan dili və nitq mədəniyyəti fənni üzrə yazılmış dərsliklər və dərs vəsaitləri.**

**Mərhələ III Müasir dövrdə yazılmış dərsliklərin təhlili.**

**İcraçı: dos. O.N.Piriyeva**

Elmi işdə müasir dövrdə yazılmış, müəllifləri S.V.Abbasova, S.M.Seyidova, N.K.Məmmədova, Ə.H.Cavadov olan «Azərbaycan dili və nitq mədəniyyəti» - dərsliyi ətraflı təhlil olunmuşdur. Dərslikdə nitq mədəniyyətinin artan rolu və ona yiyələnməyin yolları haqqında, Azərbaycan dilinə dövlət qayğısı, ədəbi dilimizin şifahi və yazılı formaları, nitq mədəniyyətinin başqa elm sahələri ilə inteqrasiyasından danışılır. Burada Azərbaycan dilinin fonetik, leksik, qrammatik normalarının nitq mədəniyyətinin formalaşmasında rolu, nitqin funksional üslublarının nitq mədəniyyətinə olan münasibəti açıqlanır. Süleyman Səfər oğlu Hüseynov. "Nitq mədəniyyəti" - adlı dərsliyi bakalavr təhsll pilləsi üçün nəzərdə tutulmuşdur. Dərsliyin məqsəd və vəzifələri ilə əlaqədar olaraq nitq mədəniyyəti dil normalarının məcmusu kimi götürülmüş, bu sahədəki mövzular anlaşıqlı və yığcam şəkildə interaktiv metodun tələblərinə uyğun şərh olunmuşdur. Nağdəli Zamanov öz monoqrafiyasında Heydər Əliyevin nitqində frazeologizmlər, ədatlar, neologizmlər, ritorik suallar, təkrarlar kimi elementlər, eləcə də əsas və köməkçi nitq hissələrinin üslubiyyat yaratmasını dərindən tədqiq etmişdir. Monoqrafiya siyasət, dilçilik, diplomatiya, jurnalistika, ədəbiyyat və digər sahələrdə fəaliyyət göstərən və təhsil alanlar üçün dəyərli vəsaitdir.

**İş Ə -Azərbaycan dili və nitq mədəniyyətinin tədrisinə dair.**

**Mərhələ II**I. Azərbaycan dili və nitq mədəniyyəti fənninin tədrisində qarşıya çıxan çətinliklər.

**İcraçı: dos. S.M.Mərdanova.**

Elmi işdə Azərbaycan dili və nitq mədəniyyəti fənninin tədrisində qarşıya çıxan çətinliklərdən bəhs olunur. Nitq mədəniyyətinin tədrisində qarşıya çıxan çətinliklərdən biri texniki vasitələrin və vəsaitlərin olmamasıdır. Fənn praktik olduğu üçün video və audio materiallar yox dərəcəsindədir. Qloballaşan dünyada dil təliminin keyfiyyətini yüksəldən başlıca vasitələrdən biri də elektron resuslardır ki, bunların da əsasında audio və video materiallar, viuzal tapşırıqlar və s. dayanır. Əgər dərsliklə elektron resuslar əlaqəli şəkildə hazirlanarsa "Azərbaycan dili və

nitq mədəniyyəti dərsliklərindəki mövcud nöqsanlar, xüsusilə dərsliklərin nəzəri materiallarla yüklənmiş hissəsi aradan qalxacaq, həm də tələbə daha intensiv və az müddət ərzində öyrəndiklərini tətbiq edə biləcəkdir. Fənnin tədrisində qarşıya çıxan daha bir çətinlik ali məktəblərin profilinin və ya fakültələrdəki ixtisasların istiqamətlərinin nəzərə alınmasıdır.

Elmi işində sonda gəlinən nəticə budur ki, bu fənni tədris edən Azərbaycan dili və nitq mədəniyyəti kafedrası öz fəaliyyət planını müəyyən etmiş, dərsliklər, dərs vəsaitləri, proqramlar hazırlamış və dəfələrlə ictimaiyyəti maarifləndirən məlumatlarla çıxışlar etmişlər.

**İş F - İşlənmə dairəsinə görə sözlərin növləri.**

**Mərhələ III Neologizmlərin nitqin inkişafında rolu.**

**İcraçı: dos. N.K.Məmmədova**

Elmi işdə qeyd olunur ki, dilimizin lüğət tərkibində yeni sözlərin işlənmə dairəsi fərqlidir. Bəzi neologizmlər dilin lüğət tərkibinə daxil olur, bir müddət işlənir və dilin lüğət fonduna daxil olur. Bəziləri isə dilin lüğət tərkibində qalır: ya geniş işlənmə dairəsinə malik olmur, ya da arxaikləşir. Məsələn, bu gün dilimizə daxil olan *feysbuk, android, vatsap, layn, imeyl, instaqram, skayp, slayd* kimi neologizmlər artıq kütlə tərəfindən işlədilir və dilimizin lüğət fondunda yer tutur. Ancaq bəzi sözlər isə belə deyil. Məsələn, *monopod* dilimizin lüğət tərkibinə daxil olsa da, geniş işləklik qazanmamışdır. Ancaq bunun əvəzində Türkiyə türkcəsinindən keçmiş *selfi çubuğu* ifadəsi daha aktiv işlənməkdədir.

Hər bir natiq, nitq söyləyən, o cümlədən müəllimlər nitq prosesində nitqin pafoslu olması üçün neologizmlərdən istifadə etməyə can atır.

Yadda saxlamaq lazımdır ki, neologizmlərdən istifadə edərkən dilin leksik normasına ciddi riayət etməli, leksik normanın tələbləri gözlənilməlidir. Neologizmlərdən istifadə edərkən diqqətli olmaq, hər bir yaranan sözün mənasını dərk etdikdən sonra kütlə qarşısında ondan istifadə etmək lazımdır, çünki yaranan hər bir neologizmi, onun mənasını hamı eyni dərəcədə başa düşmür, dərk etmir. Məsələn, *android, inteqrasiya, kurrikulum, innovasiya, konsorsium* və s. kimi

sözlərin mənası hamı tərəfindən anlaşılmadığı üçün nitqi ağırlaşdırır, yorucu edir, dinləyəni narazı salır.

**İş G - Semiotika və estetika**

**Mərhələ** III **«Semiotik tədqiqat metodunda fərqli yanaşmalar»**

**İcraçı: dos. S.A.Orucova**

Elmi işdə qeyd olunur ki, semiotika müasir nəzəri fikirdə ən çox işlənən terminlərdən biridir. Semiotika yunan mənşəli söz olub, mənası işarə, əlamət anlamına gəlir. Semiotika məhz təbiət və cəmiyyətdəki işarələr, işarələr sistemi, simvollar haqqında elm olsa da, bu simvollar əslində insani münasibətləri öyrənməyə yönəlmişdir. Elə buna görə də çox zaman bu elmə metodoloji prinsip kimi yanaşılmış, hətta semiotikanı "nəzəriyyənin beynəlxalq dili", "metodlar metodu" adlandıranlar da olmuşdur.

Semiotikanın kökləri bizim eradan əvvəl V əsrə gedib çıxır. Artıq sofistlərdə və Əflatunda (Platon) semiotika ilə bağlı fikirlərə rast gəlmək olur. Əflatunun "Sofistlər" dialoqunda belə bir sual qoyulur: bütün adları bir-birilə əlaqələndirmək olarmı və ya adlardan heç birisi, ya da bir neçəsi əlaqələndirilə bilər?

"Kratil" dialoqunda isə bu böyük filosof danışmanın mahiyyətini açır və bu gün dil fəlsəfəsində hökm sürən konvensionallıq (razılaşma) ideyasını inkişaf etdirirdi.

Ondan sonra Ərəstun (Aristotel) artıq semiotikanın tam sistemini yaratmışdı. Bu filosof ayrı-ayrı hissələri, məna daşıyan işarələrdən ibarət olan mürəkkəb işarələri, mənasız mürəkkəb işarələrdən fərqləndirirdi.

Stoiklər artıq işarənin maddi tərəfini məna tərəfindən aydın şəkildə ayırırdılar. Mənanı onlar ruh, şeyləri isə inikas olunan və bunu həyata keçirən simvol – cisim adlandırırdılar.

XIX əsrin sonlarında fəlsəfə dil nəzəriyyəsi və semiotika problemlərilə yenidən maraqlanmağa başladı. Buna da riyazi məntiqin inkişafı və riyazi tədqiqatlar səbəb oldu. Neopozitivistlər semiotikanı riyazi məntiqdən çıxış edərək şərh etmək istəyirdilər. Bu işdə Ç.Pirsin rolu əvəzsizdir.

**İş Ğ - Nitq mədəniyyəti elminin sahələri.**

**Mərhələ III. Nitq mədəniyyəti fənninin müasir metodlarla öyrədilməsi.**

**İcraçı: dos. X.F.Manaflı**

Elmi-plan işi «Nitq mədəniyyəti fənninin müasir metodlarla öyrədilməsi» adlanır. Məlumdur ki, hər bir insanın davranışının formulları mədəniyyət əsasında müəyyənləşir. Mədəniyyətin müxtəlif tipləri bir-birindən fərqləndirilir: davranış mədəniyyəti, toy mədəniyyəti, hərbi mədəniyyət və.s. Nitq mədəniyyəti də bunlardan ən mühümü, ən mürəkkəbi və ən çətinidir. Bəlli olduğu kimi, dil danışıq prosesində nitqə çevrilir ki, bunun da əsasını üç anlayış təşkil edir: ***ictimai mühit, psixoloji akt, fioloji imkan***.

Nitq fəaliyyətində psixoloji akt dedikdə, burada nitq və təfəkkür arasında gedən proseslər nəzərdə tutulur. Yəni, təfəkkurun gerçəkliyə münasibətinin nitqdə ifadəsi normal bioloji imkanlar daxilində baş verir. Bu problemlə dilçiliyin yeni sahəsi neyrolinqvistika məşğul olur. Dilin nitqə çevrilməsi üçün digər mühüm şərtlərdən biri fioloji imkanlarla bağlıdır. Ümumiyyətlə, nitqin funksionallaşması üçün eşitmə, danışıq və s. orqanların da normal qaydada olması vacibdir.

Elmi işdə nitq mədəniyyətinin iki sahəsi yazılı və şifahi nitqi inkişaf etdirmək üçün istifadə edilən yollar, iş formaları haqqında məlumat verilir. Elmi işdə - Tələbələrin nitqinin inkişaf etdirilməsinin ümumi prosesində nitq mədəniyyəti fənninin rolu və mövqeyi necədir? sualının cavabı, həmçinin həm şifahi, həm də yazılı nitq mədəniyyətinin müasir metodlarla öyrədilməsi metodları araşdırılmışdır.

**İş H- Bədii əsərlərdə işlənən nitq etiketləri haqqında.**

**Mərhələ III Dram əsərlərdə işlənən nitq etiketləri.**

**İcraçı: dos. A.T.Əliyeva, dos.əvəzi L.Ə.Əliyeva**

Məlum olduğu kimi, nitq etiketi dedikdə, insanların ünsiyyət zamanı nitq davranışı qaydaları nəzərdə tutulur. Bu qaydalar danışanların qarşılıqlı münasibəti ilə müəyyən edilir və insanlar arasında hissi və emosional münasibətləri əks etdirir. Buraya müraciət, salamlaşma, sağollaşma, təşəkkür, razılıq və ya rədd, xahiş, məsləhət, tanışlıq, təbrik, dəvət, üzrxahlıq və s. daxildir. Belə dil vahidləri xalqımızın mənəvi mədəniyyətində və nitq davranışında önəmli yerlərdən birini

tutur. Onu da qeyd edək ki, nitq etiketi formalarından həm davranış normalarına riayət edilməsi, həm də onların pozulması zamanı istifadə olunur.

Bu mənada, bədii dildə, xüsusi dram əsərlərinin nitq etiketlərinin işlədilməsi mühüm əhəmiyyət daşıyır. Elmi iş giriş, iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Birinci fəsil "Ünsiyyət mədəniyyəti: danışıq etikası və nitq etiketləri" adlanır. Burada şifahi nitqin əsas elementi olan ünsiyyətindən bəhs olunur. Cəmiyyətdə ünsiyyətin mühüm faktoru olan müraciət formaları və nitq etiketləri haqqında məlumat verilir. Qeyd olunur ki, nitq etiketləri ünsiyyət etikasının vacib şərtlərindən biridir. Nitq etiketləri danışanın ümumi səviyyəsi ilə bağlı olub onun nitq mədəniyyətinin əsas göstəricisidir.

İkinci fəsil isə "Dram əsərlərinin dilində işlənən nitq etiketlərinin linqvistik xüsusiyyətləri" adlanır. Bu fəsildəki araşdırma M.F.Axundazadənin dram əsərlərinin dilinə əsaslanır və burada nitq etiketlərinin üslubu imkanları barəsində geniş məlumat verilir. Dildə müraciət formalarının kommunikativ situasiyadan asılı olaraq işlənməsi məsələsinə də aydınlıq gətirilir. Müxtəlif üslublarda nitq etiketlərinin işlənmə xüsusiyyətləri və fərqli təzahürləri haqqında danışılır.

**İş X - «Kitabi-Dədə Qorqud» dastanının dil və üslub xüsusiyyətləri.**

**Mərhələ III «Kitabi-Dədə Qorqud» dastanının dilində şəkil və məzmunca fərqlənən söz qrupları (omonim, sinonim, antonimlər) formaları.**

**İcraçı: müəl. N.M.Hacıyeva**

Elmi iş türk dünyasının tarixi və möhtəşəm abidəsi "Kitabi-Dədə Qorqud"un dilinin leksik xüsusiyyətlərinin təhlilinə həsr olunub. Burada dastanın ümumi leksik xüsusiyyətləri ilə yanaşı, şəkil və məzmunca fərqlənən söz qrupları haqqında ətraflı məlumat verilmişdir.

"Kitabi-Dədə Qorqud"un bəzi leksik xüsusiyyətlərinə dair" adlanan birinci fəsildə dastanın dilinin leksikası haqqında ümumi təsəvvür yaradılmışdır. Burada dastanın dilinə xas olan leksik-semantik əlamətlərə toxunulmuşdur.

Elmi işin ikinci fəsli "KDQ-nin dilində çoxmənalılıq və omonimlik" adlanır. Bu hissədə dastanın dilində işlənən polisemantik və omonimik hadisələrdən söz

açılır. Boyların dilində rast gəlinən bəzi omonim sözlərin mənaları təhlil olunur, onlar çoxmənalılıqdan fərqləndirilir.

"KDQ-nin dilində sinonimlik və antonimlik" adlanan üçüncü fəsildə KDQ-nin dilindəki sinonimlər və antonimlərin linqvistik xüsusiyyətləri haqqında məlumat verilir. Müəyyənləşdirilmiş nümumələr müasir dil faktları ilə tutuşdurulur.

"Nəticə" hissəsində mövzu haqqında yekun qənaətlər ümumiləşdirilmişdir. Elmi işdə KDQ haqqında mövcud elmi qaynaqlara istinad olunmuşdur.

**İş I - Felin zamanlarının ekspressivliyi.**

**Mərhələ III Gələcək zamanın ekspressivliyi.**

**İcraçı: dos.əvəzi. Ə.Y.Ağakişiyev**

Məlum olduğu kimi, mürəkkəb hadisə olan dil ən müxtəlif - fizioloji, psixoloji, ictimai və fərdi amilləri ehtiva etməklə, onların məcmusu qismində çıxış edir. Bununla yanaşı, dil həm də müstəqil hadisədir, mürəkkəb daxili struktura malikdir. Onun funksiyaları sırasına həm idraki, kommunikativ, ekspressivemosional funksiyalar, həm də təmas funksiyası və poetik funksiyala daxildir. Ekspressivlik bu funksiyalar sırasına daxildir və ən qədim dövrlərdən bəri tədqiqat obyekti olmuşdur. Hələ antik dövrdə alimlər «ekspressivlik» termininə müxtəlif və fərqli təriflər versələr də, uzun müddət tədqiq olunmasına, diqqət yetirilməsinə baxmayaraq, o hələ də ən aktual, ziddiyyətli bir sahə olaraq qalmaqdadır. «Ekspressivlik» dedikdə, üslubiyyat, semantika və nitqin praqmatikliyi arasında keçid mövqe tutan bir sahə nəzərdə tutulur. Bəzi alimlərin araşdırmalarında «ifadəlilik» və «ekspressivlik» anlayışları eyniləşdirilir ki, bu da dil vasitələri ilə ötürülən mənanın ön plana çəkilməsinə, başqa sözlə, söyləmin semantik-praqmatik yönümünün qüvvətləndirilməsinə aparır. Hər bir dildə olduğu kimi, Azərbaycan dilində də eksperssivlik müxtəlif vasitələrlə və müxtəlif səviyyələrdə yaranır. Belə vasitələrə fonemlər, leksemlər, morfemlər və sinaqmlar aiddir. Səviyyələr dedikdə isə, müvafiq olaraq, fonetik, leksik, sintaktik səviyyələr nəzərdə tutulur. Təqdim olunan elmi işdə ekspressivliyin yaranmasında feillərin rolu araşdırılır,

**İş İ- M. Cəlalın əsərlərinin dil və üslub xüsusiyyətləri.**

**Mərhələ III M.Cəlalın publisistikasının dil və üslub xüsusiyyətləri.**

**İcraçı: dos. Ş.A.Abasova**

Mir Cəlalın dillə bağlı elmi-nəzəri görüşləri yalnız bədii sənətin inkişafına, ədəbiyyatın oxucu ilə əlaqəsinin möhkəmlənməsinə yönəlmir, son dərəcə dərin, köklü məsələlərlə bağlıdır. Burada klassik ənənələrə sədaqətdən tutmuş, dilin müdafiəsi, təmizlənməsi, milli ruhun, milli zövqün inkişafını təmin etməyə qədər çox şey, xüsusilə xalq-dövlət mənafeyini nəzərdən qaçırmamaq və digər önəmli məsələlər ehtiva edilir. Qeyd olunur ki, Mir Cəlal sözün-nitqin, bütövlükdə ədəbi dilin məna və məzmunundan başqa, onun hissi-idraki təsir gücünə, emosional-estetik zövqə, ahəng aşılamaq xüsusiyyətlərinə, bəlağətli, xüsusi intonasiya ilə səslənməsinə də fikir və əhəmiyyət verən sənətkar idi. O, quru, cansıxıcı, darıxdırıcı sözün, hətta kiçik bir ifadənin də danışığa, nitqə, yazıya yol tapmasının əleyhinə çıxırdı.

Mir Cəlalın bütün bədii əsərlərinin mahiyyətində onun dil-söz haqqında elmi-nəzəri fikirləri, dilçilik görüşləri dayanır. O, oxuduğu hər bir bədii əsərə dil qanunlarının prinsipləri ilə yanaşır, dilinin səviyyəsinə görə qiymət verirdi. Mir Cəlal bədii dil məsələləri haqqında yeri gəldikcə nəzəri məqalələr yazmış, tutarlı mülahizələr söyləmişdir. Onun "Bədii dilimiz", "Sözün qüdrəri", "Dahi söz ustası" və s. məqalərinin ədəbi-bədii dil tarixçiliyinin müasir tədqiqat nümunələri kimi öz əhəmiyyətini qoruyub saxlaması elmi işdə qeyd olunur.

**İş J- Azərbaycanda əlifba problemi.**

**Mərhələ III Müstəqillik dövründə əlifba məsələsi**

**İcraçı: müəl. Ş.N.Əliyeva, müəl. Y.V.Qəhrəmanlı**

XX-ci əsrin 90-cı illərində Sovet ittifaqı dagıldıqdan, Respublikamız müstəqillik əldə etdikdən sonra latın əlifbasını bərpa etmək zərurəti meydana cıxdı. 1991-ci ilin dekabrında Ali Sovetin Milli Şurasının qərarı ilə yeni latın qrafikalı əlifbaya kecid təsdiq olundu. Əlifba Komissiyası yaradıldı. Yeni əlifba layihəsinin hazırlanmasında dilcilər, tarixcilər, şərqşünaslar, şair və yazıcılar, müəllimlər,

nəşriyyat işçiləri və digər ziyalılar iştirak edirdilər. Müzakirə 6-7 ay davam etdi və 3 təklif irəli sürüldü:

1) Latın əsaslı müasir türk əlifbasını oldugu kimi götürmək;

2) XX əsrin 20-ci illərində istifadə olunmuş əlifbada hec bir dəyişiklik etmədən onu eyni ilə qəbul edib işlətmək;

3) Latın qrafikalı yeni müstəqil əlifba tərtib etmək.

Ücüncü təklifə əsasən, əlifba layihəsi hazırlanıb müzakirəyə verildi. Beləliklə, 1991-ci ildən yenidən latın qrafikalı əlifbaya keciirildi. 2001-ci il avqustun 1-nə qədər davam edən bu dövr pərakəndə dövr sayılır. Cünki bu dövrdə latın qrafikalı yeni əlifba ilə yanaşı, kiril qrafikalı köhnə əlifbadan da istifadə olunurdu. 10 il davam edən bu dövrü hazırlıq mərhələsi saymaq olar. Nəhayət, 2001-ci il avqustun 1-dən Ümummilli lider H.Əliyevin fərmanı ilə ölkədə latın qrafikalı Azərbaycan əlifbası yekdilliklə qəbul edildi.

**İş K - Azərbaycan dilində qrammatik omonimlik məsələsi**

**Mərhələ III Azərbaycan dilində qrammatik omonimlik məsələsi.**

**İcraçı: müəl. İ.A.Məhərrəmova**

Elmi-plan işində qrammatik və leksik morfemlər arasındakı omonimlik məsələsinə diqqət yetirilir. Omonimliyin heç də təsadüfi hadisə yox, dilin təbiəti ilə əlaqədar bir hadisə olduğu və burada ümumi bir qanunauyğunluq olduğu göstərilir.

Omonimlərin mövcudluğu, omonimləşmə prosesinin davam etməsi dilin qədimliyindən xəbər verdiyi kimi, onun zənginləşməsi və inkişafını da təsdiqləyir.

Ümumi dilçilikdə fonetik, tərkibcə eynilik, mənaca müxtəliflik əsas dil vahidlərindən sözə aid edilir. Lakin dil faktları sübut edir ki, fonetik tərkibcə eynilik, mənaca müxtəliflik təkcə sözlərə aid deyil, dil vahidlərinin əksəriyyətinə aiddir. Dildə yalnız müstəqil mənalı sözlər deyil, sözlə şəkilçi də omonim ola bilər.

Leksika ilə qrammatika arasında çox sıx bir əlaqə vardır və söz yaradıcılığı prosesində qrammatik ünsürlərin leksik ünsürlərə çevrilməsi dilin daxili inkişafı qanunları, qrammatik quruluşu ilə əlaqədar olan bir məsələdir. Azərbaycan dilində söz yaradıcılığı bilavasitə dilin qrammatik –leksik və ya leksik – qrammatik

xüsusiyyətlərini əmələ gətirən şəkilçi başqa bir nitq hissəsinin də müəyyən xüsusiyyətlərini əmələ gətirməyə xidmət edir ki, nəticədə hər iki nitq hissəsinin başqa- başqa məna funksiyalarını daşıyan omomorfemləri meydana gəlir.

Tədqiqatda göstərir ki, eyni səs tərkibində olan şəkilçi həm leksik, həm qrammatik formada çıxış edərək omonimlik yaradır.

**4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI**.

Hesabat ilində 1 dərslik, 1 dərs vəsaiti, 1 metodik göstəriş, 50-ə yaxın məqalə çap olunmuşdur.

Məqalələr Azərbaycan dili və ədəbiyyatının, nitq mədəniyyətinin nəzəri və tədrisi məsələlərinə həsr olunmuşdur.

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ- TƏDQİQAT İŞLƏRİ - Yoxdur.**

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR – Yoxdur.**

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR** - Yoxdur

**8. ELMİ – TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ.**

Elmi-tədqiqat işlərinin nəticələri ali və orta məktəb dərsliklərinin tərtibində istifadə oluna bilər.

**9.PATENT VƏ İNFORMASİYA İŞLƏRİ** – Yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI**: Kafedrada 2017-2018-ci illər uçun nəzərdə tutulmuş elmi plan işinin əsasında 2018-ci ilin elmi iş planı tərtib edilmiş və hər bir müəllimə konkret iş tapşırılmışdır.

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI.**

Kafedranın üzvləri fakültədə və universitetdə keçirilən bir sıra elmi konfransların təşkilində iştirak elmişlər.

**Dos. Səidə Abbasova:** İslam həmrəyliyi-2017: Reallıqlar və perspektivlər mövzusunda respublika elmi-metodik konfransının materialları. Bakı, 25-26 aprel 2017 ci il.

**Mövzu:** Azərbaycan İslam sivilzasiyasının tərkib hissəsi kimi.

**Dos. Səidə Abbasova:** Qafqaz Universiteti: H.Əliyevin 94 illiyi ilə bağlı beynəlxalq elmi konfransın materialları.

**Mövzu:** Elçin Hüseybəylinin Şah Abbas tarixi romanı.

**Dos. Sultan Seyidova:** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş «Filologiyanın aktual problemləri» mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 17-18 may 2017 ci il.

**Mövzu:** Çoxmənalılıq nitq mədəniyyətinin formalaşdırılmasının əsas vasitəsi kimi (M.P.Vaqifin yaradıcılığı üzrə).

**Dos. Sultan Seyidova:** Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubleyinə həsr olunmuş "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017

**Mövzu:** Vaqif yaradıcılığında bədii təkrir poetizm yaradan vasitə kimi.

**Dos. Zöhrə Nəbiyeva**: Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubleyinə həsr olunmuş "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017.

**Mövzu:** Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi yolları üzrə görülən işlərin məzmunu və istiqamətləri.

**Dos. Nailə Məmmədova:** Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubleyinə həsr olunmuş "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017.

**Mövzu:** İdarə əlaqəsinin işlənmə sferası.

**Dos. Samirə Orucova:** Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubleyinə həsr olunmuş "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017.

**Mövzu:** İkinci tərəfin ifadə vasitəsinə görə feli birləşmələrin tədrisi.

**Dos. Asifə Əliyeva:** Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubleyinə həsr olunmuş "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017.

**Mövzu:** Ünsiyyət mədəniyyəti: danışıq etikası və nitq etiketləri

**Dos. Şəlalə Abasova:** Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubleyinə həsr olunmuş "M.P.Vaqif və Müasirlik" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Bakı, 2017.

**Mövzu:** Heca vəznli-ana dili şeirimizin zirvəsi.

**Dos.əvəzi. Lətafət Əliyeva:** İslam həmrəyliyi-2017: Reallıqlar və perspektivlər mövzusunda respublika elmi-metodik konfransının materialları. Bakı, 25-26 aprel 2017 ci il.

**Mövzu:** Azərbaycanda islam dəyərləri: tarix və müasirlik.

**Müəl. Şəlalə Əliyeva:** İslam həmrəyliyi-2017: Reallıqlar və perspektivlər mövzusunda respublika elmi-metodik konfransının materialları. Bakı, 25-26 aprel 2017 ci il.

**Mövzu:** Ədəbiyyatda tarixilik, müasirlik, insan və din.

**12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ – PEDAQOJİ KADRLARIN HAZIRLANMASI.**

Kafedrada gənc işçilərin müəllim kimi hazırlanmasına diqqət yetirilir. Hal-hazırda kafedrada müəllim işləyən elmi dərəcəli və elmi adı olan müəllimlərin bir çoxu kafedranın yetirmələridir.

**13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARI-NIN FƏALİYYƏTİ. – 1 nəfər**

**14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİST-RLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI). -** Yoxdur

**15. 2017-ci İLDƏ HANSI AVADANLIQLARIN ALINMASINA EHTİYAC DUYULUR.**

**16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR**: Kafedrada magistr hazırlığı üçün potensial olduğunu nəzərə alaraq magistr təhsil pilləsi üçün yer ayrılmağını təklif edirik.

**Kafedra müdiri: dos. S.V.ABBASOVA**